# "ABŞERON" SANATORİYASI

## Bu müalicə ocağında çoxları şəfa tapır

**Yadımdadır ki, mən ilk dəfə bu müalicə ocağına 1989-cu ildə getmişəm. Onda mədəm, bağırsağım və öd yollarım möhkəm ağrıyırdı. Məni də müayinə və müalicə edən həkimlər məsləhət bildilər ki, elə "Abşeron" sanatoriyasında bir kurs müalicə qəbul edim. Mən də həmin ilin avqust ayında bu sanatoriyada müalicə götürdüm. Həmin müalicə nəticəsində qısa zaman kəsiyində özümü yaxşı hiss elədim. Hansı ki, sanatoriyaya getməmişdən öncə kəskin öd ağrısından çox əziyyət çəkirdim. Amma bir kurs müalicə öd ağrılarına son qoydu və özümü əvvəlki vaxtla mıqayisədə gümrah gördüm.**

Bu müalicələrdən sonra hər il yay dövründə, sonralar isə payız aylarında davamlı olaraq "Abşeron"da müalicə götürdüm. Müalicəni götürəndən sonra həmin ili ağrıyıb-acımaz və özümü quş kimi hiss edərdim. Bir sözlə, mənə elə gəlir ki, dünyanın ən gözəl müalicəvi sanatoriyalarından biri də "Abşeron"dur. Başqa sözlə demiş olsaq, bura ölü gələnlər dirilib gedirlər.

Keçmiş SSRİ məkanında Yessentukidən sonra mədə-bağırsaq üzrə ən yaxşı sanatoriya "Abşeron" sayılıb. O da yaxşı yadımdadır ki, mən ilk dəfə burda malicə alanda SSRİ-nin əksər yerlərindən çoxlu sayda müalicəyə gələn insanlar var idi. Onlar səhər saat 6-nın yarısından yuxudan oyanır, gedib dənizdə təmiz hava qəbul edir, sonra gəlib sanatoriyanın yaşıllıqları arasında gəzir və bir-iki də təbii müalicə götürərdilər. Deyirdilər ki, biz "Abşeron"da içdiyimiz "İstisu" yessentukidən daha müalicəvi əhəmiyyətlidir.

O vaxtlar sanatoriyanın beş-altı korpusu var idi. Və bu beş-altı korpusda da çoxlu sayda həm MDB ölkələrindən, həm də öz məmləkətimizdən gələn insanlar gözə dəyirdilər. Onların da hamısı sanatoriyanın həyətindəki eldar şamı, küknar ağacları arasında saatlarla gəzməkdən ləzzət alardılar. Deyərdilər ki, burdakı oksigen və təmiz hava dünyanın heç harasında yoxdur.

Onda sanatoriyanın baş həkimi rəhmətlik Adil Mahmudov idi. Baş həkimin müalicə işləri üzrə müavini isə rəhmətlik Hasil İbrahimov idi. Onlarla mənim çox yaxın bir dostluğum varıdı. Və bu dostluğun üstünə bir dostluq da əlavə olundu. Bunu da Hasil həkim yaratdı. Dedi ki, birinci korpusda çox ziyalı, savadlı və vətənpərvər bir həkim var. Onu səninlə tanış edəcəm. O həkimi mənlə tanış etdi və o da çox vaxt məni müayinə edər, məsləhət verər, uzaqbaşı iki-üç müalicə yazardı. Deyərdi ki, həddindən çox müalicə götürmək bəzən mənfi təsir göstərir. Bu həkim indi haqq dünyasına qovuşmuş Zülfüqar Kazımovuydu. O Zülfüqar Kazımov ki, dünya malında gözü olmazdı və heç bir xəstədən də bir şey ummazdı. Bir dəfə bir pay gətirmişdim, onu da geri qaytardı. Dedi ki, sən özün ziyalı oğlansan, biz sənə kömək eləməliyik. Biz sənin kimi ziyalının qədrini bilməsək, elə ilk növbədə özümüzə hörmətsizlik eləmiş olarıq. Allah həm Adil həkimin, həm Hasil həkimin, həm də Zülfüqar həkimin o dünyasını versin. Torpağı sanı balalarına, nəvələrinə xoş günlər bəxş eləsin...



Bu gün də "Abşeron" sanatoriyası öz müalicəvi əhəmiyyətinə görə, digər sanatoriyalardan seçilir. Çünki burda mədə-bağırsaq, qaraciyər, öd kisəsinin müalicəsi ilə yanaşı, ürəyin, müxtəlif yel xəstəliklərinin, o cümlədən əsəbin də müalicəsi həyata keçirilir. Həmin kompleks müalicə heç də digər sanatoriyalarda mümkün deyil. Ən gözəli isə sanatoriyanın həyətindəki yaşıllıqlardır. Burdakı təmiz hava və gözəllik çox nadir sanatoriyalarda vardır. Səhər saat 6-nın yarısında oyanıb bir xeyli gəzərək bu havanı qəbul etsən, onun əvəzi yoxdur.

Sanatoriyanın baş həkimi Fəxrəddin Məmmədov bildirir ki, bu gün bizdə iki korpus fəaliyyət göstərir və onların hər biri əsaslı surətdə yenidən təmir edilib və müalicəyə gələnlərin istifadəsinə verilib. Qış aylarında əvvəlki vaxtlarda olduğu kimi, heç bir çətinliyimiz yoxdur. İndi hər iki korpusda oktyabrın əvvəllərindən istilik sistemləri işə salınıb. Üstəlik də müalicə korpusu da əsaslı surətdə təmir edilib. Bütün otaqlar müasir avadanlıqlarla təchiz olunub. Bir sözlə, müalicəyə gələnlərin şəfa tapması üçün unikal şərait yaradılıb. Xidmətin də səviyyəsi əsaslı surətdə yüksəldilib. Əgər kimsə gəlib burda müalicə alsa, şübhə etmirəm ki, yenə ikinci dəfə bizim sanatoriyaya üz tutmalı olacaqdır.

Baş həkimin müalicə işləri üzrə müavini Şahin Quliyev də çox ziyalı və səmimi bir insandır. O nə az, nə çox, düz 30 ildir ki, bu sanatoriyada işləyir. Müxtəlif vaxtlarda Şahin həkimə iş təklif olunub. Ancaq o, burdan heç hara çıxıb getməyib. Mənim Şahin həkimlə hardasa 27 illik haqq-salamımız var. Onu ilk gündən necə tanımışamsa, bu gün də elə bir səmimiyyətlə üzləşirəm.



Şahin Quliyev daxili xəstəliklər üzrə fəlsəfə doktorudur. Ali dərəcəli həkimdir. Öncə isə çox böyük insan, çox böyük ziyalı və çox böyük həm də ürək sahibidir. İnanmıram ki, Şahin həkimin müalicə etdiyi hər hansı bir pasiyent ondan narazı qalsın. Ən azından Şahin Quliyev öz sevgisini, məhəbbətini və ürəyinin hərarətini o pasiyentdən heç vaxt əsirgəməyib. Şahin həkim dəfələrlə Avstriyada, İstanbulda, Sankt-Peterburqda keçirilən həkimlərin beynəlxalq simpoziumunlarında iştirak edib. Orda öyrəndikləri yenilikləri və qabaqcıl təcrübəni peşəkarlıqla çalışdığı sanatoriyaya gətirib və digərlərinə də bunu öyrədə bilib.

Sanatoriyada masaj, müxtəlif müalicəvi palçıqlar, bağırsaqların, öd yollarının yuyulması, darsanval müalicəsi diqqəti cəlb edir. Ən mürəkkəb proseslərdən biri bağırsağın, öd yollarının müasir metodla yuyulması və təmizlənməsidir. Bu iş nə qədər mürəkkəbdirsə, bir o qədər məsuliyyətli bir vəzifədir. Ona görə ki, son dərəc bu proses dəqiqliklə və peşəkarlıqla həyata keçirilməlidir. Həmin işi də tibb bacısı, təcrübəli həkim Kimya Qarayeva gerçəkləşdirir. Kimya xanım bu müailcə zamanı təbii otlardan, yağlardan daha geniş istifadə edir. Çobanyastığı və digər bitkilərdən istifadə edilməsinin çox müsbət effekti olur. Elə mənim özümü də dəfələrlə gözəl və ziyalı insan Kimya xanım müalicə edib. O, xəstələrin hər nazı, mürəkkəb xasiyyətləri ilə oynayır və onların qəlbini şirin sözləriylə ələ alır. İnanın, bir dəfə bağırsağını ona yuyduzduran xəstə həmişə Kimya xanımı axtarır. Çünki o, respublikamızda bu sahə üzrə ən təcrübəli, ən peşəkar mütəxəssislərdən biridir. Gəncədən gələn xəstə Hacı Hacıyev deyir ki, məni uzun illərdir Kimya xanım müalicə edir. Hətta bir dəfə Yessentukidə oldum. Ordakı tibb bacıları Kimya xanım kimi mənim bağırsaqlarımı və öd yollarımı yüksək peşəkarlıqla yuya bilmədilər. Elə o vaxtdan da mən "Abşeron"a gəlirəm.

Gözəl insan və gözəl ana, nənə Kimya xanım düz 42 ildir ki, bu sanatoriyada çalışır. Bu 42 ildə o, minlərlə xəstəyə şəfa verib. Bu xidmətlərinə görə ölkə prezidenti cənab İlham Əliyevin sərəncamları ilə "Tərəqqi" medalına və fəxri fərmana layiq görülüb. O deyir ki, mənim üçün həm də ən böyük mükafat şəfa verdiyim xəstələrin xeyir-duasıdır. Elə ki, xəstələrim məndən razı qalır, bax, onda özümü dünyanın ən xoşbəxt insanı hesab edirəm. Düşünürəm ki, çəkdiyim zəhmət hədər getməyir.

Kimya xanımın yanında son dərəcə tərbiyəli və ismətli bir qız da çalışır. Bu, Telli Ələsgərovadır. O qədər səbirli, o qədər ağıllı qızdır ki, bütün xəstələr bu məziyyətlərinə görə onu çox istəyirlər.

Sanatoriyada masajçılar Maya, Sevinc, Toma, darsanval Mehriban, naftalan palçığını xəstələrin ayaqlarına və belinə sürtən Əli müəllim, Masazır palçığını hazırlayıb xəstələrə şəfa verən Gulya xanım və ən nəhayət, öz intellekti, savadı və ziyalılığı ilə seçilən Zərqələm xanım çoxlarının yaddaşında xeyirxah insanlar kimi qalıblar. Burda müalicə alan Mirmusa Əliyev, Nabat xanım, Aybəniz xanım və eləcə də mənimlə bir stol arxasında əyləşmiş gənc Tamerlan bəy özlərini çox yaxşı hiss eləyirdilər. Onlar deyirdilər ki, Allah ömür versə, gələn il də bu sanatoriyada gəlib müalicə götürəcəyik.

**Bu müalicələrlə yanaşı, sanatoriyanın yaşıllıqlara qərq olunmuş hektarlarla həyətəni gəzmək, təmiz havanı udmaq, gözəlliklərə, güllərə, çiçəklərə tamaşa etmək insana qeyri-adi bir sağlamlıq, ruh yüksəkliyi gətirir. Çünki gözəl müalicə olduğu yerdə gözəl yaşıllıqlar, təmiz hava olanda insan özünü daha gümrah və daha sağlam hiss eləyir...**

**Faiq QİSMƏTOĞLU**

Ədalət.2016.-30 noyabr.-S.3.